# AZƏRİN DASTANI



**İncədə gül incədir,**
**Qızında bel incədir.**
**Azər kimi oğullar,**
**Bizim el - İncədədir.**
**(Fərİdə Ləman)**

***Azər Abdulla oğlu Kazımov Qazax mahalının İncə dərəsinin Qaymaqlı köyündə anadan olub, bu torpaqda ərsəyə yetib, boya-başa çatıbdı.***

Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ müharibəsi başlanan gündən Azər silaha sarıldı, öz igidliyi, qorxmazlığı, cəsurluğu ilə seçildi. Qurd ağızlı, qartal baxışlı, İncənin igid oğlu Azər döyüşlərdə ermənilərin qənimi oldu. Vaxtı ilə İncə dərəsinin vurub-tutan, sayılıb-seçilən, adlı-sanlı igidləri olmuş Qaçaq İsmayılın, Bəzəkli Omarın, Qara Səmədin, Uzun Allahverənin, Gövhər Alının qəhrəmanlıq yolunu tutub, onların yolu ilə getdi. Torpaq yanğısı, yurd sevgisi, vətən məhəbbəti, el qeyrəti onun amalı, məsləki oldu. Mərhum gənc şair Ülvi Bünyadzadənin

***Həyat üçün doğulmuşuq,***
***Vətən üçün ölməliyik!***

müqəddəs kəlmələri Azərin dilinin əzbəri idi. Qəlbinin bütün rişələri, bütün cismi-ruhu ilə vətənə, torpağa bağlıydı Azər.

Azər İncə dərəsindən - Qarabağ döyüş bölgəsinədək şanlı və şərəfli, odlu-alovlu cəbhə yolu keçdi. İgid döyüşçü kimi qan içən ermənilərə layiqli cavab verdi, intiqamı yerdə qoymadı. A.Kazımov vətən, torpaq, namus yolunda əldə silah gecə-gündüz torpaqlarımızın keşiyində hünərlə, sayıqlıqla dayandı. Azərbaycanın bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı naminə Azər sinəsini vətənə sipər etdi. Bir çox qanlı döyüşlərdə, mürəkkəb əməliyyatlarda yaxından iştirak etdi, düşmən mövqelərinin öyrənilməsində, həmçinin canlı qüvvə və texnikasının məhv edilməsində hünər və mərdlik nümunəsi göstərdi.

Xalq onu sevdi, onunla fəxr etdi. Azəri xalq Milli Qəhrəman kimi tanıyır. O, bu adı rəsmi almasa da xalq özü bu adı çoxdan verib ona. Azərin igidliyi, siyasəti, qəhrəmanlığı eldən-elə, dildən-dilə düşdü. Haqqında mətbuatda yazılar yazıldı, şəninə neçə-neçə şerlər, nəğmələr, bayatılar, rəvayətlər qoşuldu, ən nəhayət, şərəfinə dastan yapıldı. İgidliyi, qəhrəmanlığı bax beləcə, nağıllaşdı, dastanlaşdı Azərin. Azər bizim müasirimizdir, öz zəmanəsinin qəhrəmanıdır.

İndi sözü nəzmə çəkmək, saza qaldırmaq, dastan yaratmaq hər aşığın işi deyil. Bu işin öhdəsindən "İncəgülü" saz havasının yaradıcısı, azman el sənətkarı Aşıq Avdı Qaymaqlının oğlu, istedadlı el aşığı Sadıq Avdıoğlu layiqincə gəlib. Sadıq Avdıoğlu 60 ildir ki, aşıqlıq edir, çoxlu sayda aşıq şerlərinin müəllifidir. O, eyni zamanda dastançı aşıqdır. "Kitabi-Dədə Qorqud" dan üzü bəri "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Qurbani", "Abbas və Gülgəz", "Valeh və Zərnigar", "Əsli və Kərəm", "Leyli və Məcnun", "Aşıq Qərib və Şahsənəm", "Şah İsmayıl", "Tahir və Zöhrə", "Diləfruz və Məsim", "Alı xan və Pəri xanım" kimi neçə-neçə qəhrəmanlıq və məhəbbət dastanlarımızı əzbərdən bilir.

Aşıq Sadıq Avdıoğlu özü də bir neçə dastan yaratmışdır. Son dastanı İncə dərəsinin igid və qəhrəman oğlu Azər Kazımovun şərəfinə həsr etdiyi "Azərin dastanı"dır. Dastan "Adiloğlu" nəşriyyatında kitab şəklində çap olunmuşdur. Ünlü şairimiz, rəhmətlik Akif Səməd çox məhəbbətlə kitaba ön sözü yazıb. "Bu dastanda dastana doğru yol gedir. Bitəcək, cilalanacaq, azalacaq, artacaq, Aşıq Avdı bulağından su içənlərə əmanət edir Sadıq Avdıoğlu...Aşıq Sadığın, igid Azərin nəvələrinə əmanətdir bu dastan torpaq kimi, saz kimi..."

"Azərin dastanı" oxucular tərəfindən maraqla qarşılanmış, aşıqlar el məclislərində, toy şənliklərində Azərdən oxuyur, dastandan həvəslə danışırlar.

"Azərin dastanı" da qədim Azərbaycan dastanlarının sırasına qoşuldu. Biz ümid edirik ki, bu dastan da o dastanlar kimi uzun ömürlü olacaq, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyələnməsində mühüm rol oynayacaqdır.

***Qarabağ müharibəsinin qəhrəmanı, İncənin igid oğlu, Milli Ordunun fədaisi, "Mixaylo"su olmuş Azər Kazımovu və "Azərin dastanı" kitabının müəllifi, sazlı-sözlü ozanımız, Azərbaycanın görkəmli aşığı Sadıq Avdıoğlunu ürəkdən təbrik edir, hər ikisinə cansağlığı, uzun ömür, ailə səadəti və xoşbəxtlik arzulayırıq!***

**Kazım KAZIMLI**